**UOT 327**

***Shirin Baghchi Pirooz,***
***Bakı Bövlət Universitetinin dissertantı***
***ialimusa@mailru***

# İRANIN MƏRKƏZİ ASİYA VƏ CƏNUBİ QAFQAZ SİYASƏTİ

**Annotasiya**

Məqalədə müasir dövrdə İranın Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda siyasəti tədqiq olunur.Müəllif İranın bölgə dövlətləri ilə əməkdaşlığının əsas istiqamətlərini nəzərdən keçirir. Regionun aparıcı aktorlarının İranın Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda yeritdiyi siyasətə münasibətinə xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *İran, Mərkəzi Asiya Cənubi Qafqaz, region, əməkdaşlıq*

# IRAN'S POLICY IN CENTRAL ASIA AND THE SOUTH CAUCASUS

**Annotation**

The article discusses the policy of Iran in Central Asia and the South Caucasus in the modern era. The author examines the main aspects of Iran’s cooperation with regional states. Special attention is paid to the attitude of the leading actors of the region to the policies pursued by Iran in Central Asia and the South Caucasus.

***Keywords:*** *Iran, Central Asia, South Caucasus, region, cooperation*

## *Mahmud Əhmədinecadın hakimiyyəti dövrü*

İranın Yaxın və Orta Şərqdə aparıcı dövlətə çevrilməsinə yönəlmiş müasir xarici siyasət strategiyasının konseptual istiqaməti xüsusi tarixi missiya hesab olunur. Son onilliklər ərzində bu prioritet vəzifənin həyata keçirilməsinin vasitələri və üsulları nəzərəçarpacaq dərəcədə təkamülə uğramışdır. Mərkəzi Asiya ölkələrinə tətbiqən bu strategiya indi postsovet dövrünün birmənalı olmayan təcrübəsi və bir sıra amillərin təsiri nəzərə alınmaqla həyata keçirilir.

Mahmud Əhmədinecad 2005-ci ilin iyun ayında İran Prezidenti seçilərkən İİR və Mərkəzi Asiya dövlətləri arasında uzun tarixi keçmişə malik əlaqələr mövcud idi. İranla Mərkəzi Asiya respublikalarının hər biri arasında münasibətlər xüsusi xarakter daşıdığından, Mərkəzi Asiya regionu ilə bağlı İranın ümumi siyasətindən danışmaq düzgün olmazdı. SSRİ dağıldıqdan dərhal sonra istifadə edilməmiş iqtisadi, siyasi və ideoloji məkanı aşkar edən İran Mərkəzi Asiyanın yeni dövlətlərində, ilk növbədə Tacikistan, Özbəkistan və Türkmənistanda siyasətini fəallaşdırdı.

Qeyd edək ki, İranın Amerika və Avropa istiqamətində səyləri əsasən kəşfiyyat və diplomatik sahədə gerçəkləşdirilirdisə, keçən əsrin 90-cı illərində Mərkəzi Asiyada İranın maraqlarına xidmət edən dini və siyasi hərəkatların maliyyələşdirilməsinə böyük vəsait yönəldilirdi. İran özünün regional siyasətində siyasi xarakterli uzunmüddətli tədbirlər həyata keçirməyə başladı. İranın bölgənin qonşu ölkələrinə ideoloji ekspansiyasının xüsusiyyətləri qonşu dövlətlərin siyasi məkanına müxtəlif ideologiyalı yanaşmaların

köməyi ilə birbaşa və ya dolayı təsir göstərən xüsusi vasitələrin tətbiqi ilə xarakterizə olunurdu [2].

M.Əhmədinecadın hakimiyyətə gəlməsi ilə İran Mərkəzi Asiya istiqamətində siyasətini fəallaşdırdı. Əhmədinecadın prezidentliyi dövründə İran Mərkəzi Asiya regionuna təsir göstərən əsas aktorlardan birinə çevrildi. Mərkəzi Asiyadakı regional proseslər kontekstində İran Tacikistanda daha böyük nəticələr əldə etdi. Tacikistanda İranın köməyi ilə yaradılan İslami Dirçəliş Partiyasının proqramı "İslam dövlətinin yaradılması"nı nəzərdə tuturdu. Eyni zamanda, Tehran İran, Tacikistan və Əfqanıstandakı farsdilli xalqların vahid dövlətinin yaradılması variantları hazırlayırdı. Daha dəqiqi, Əfqanıstanın şimalında – tacik-xazarey və Herat İslam Respublikaları adlı iki dövlət yaradılması ideyası irəli sürülmüşdü. Bu fikir İranın siyasi dairələrində dəfələrlə ifadə edilmişdi və elita daxilində çox populyar idi. Lakin Tacikistanda islamçıların fəaliyyətinin tədricən zəifləməsi İranın bu bölgədə təsirinin məhdudlaşmasına gətirib çıxardı. 1992-ci ilin sonundan etibarən Tacikistan-İran münasibətlərində başlanan tənəzzül bəzən soyuqlaşmaya keçirdi. İran siyasi dairələrinin Tacikistanda üstünlüyə ilkin iddiaları Rusiya tərəfindən qısa müddətdə zərərsizləşdirildi. Tacikistanda Rusiya və digər MDB ölkələrinin hərbi-siyasi iştirakı bu ölkədə İranın mövqelərinin zəifləməsinə səbəb oldu, İranın Tacikistana siyasi və ideoloji təsiri getdikcə azalmağa başladı.

Ümumi siyasi strategiyaya gəldikdə, belə bir qənaət hasil oldu ki, İran təcriddən çıxmağa və "beynəlxalq səhnədəki müsbət proseslərdə iştirak etməyə" can atır. O dövrün təcrübəsi Tacikistanda Rusiya-İran əməkdaşlığının formatını müəyyən edərək, iki ölkənin maraqlarının birbaşa qarşıdurmasının qarşısını almağa imkan verdi.

Taciklərin və iranlıların etno-mədəni yaxınlığı vətəndaş qarşıdurmasının həllində Tacikistanla İranın yüksək səviyyəli münasibətlərinə zəmin yaratdı. İslam inqilabının fəal ixracı siyasətinin dayandırılmasından sonra İran-Tacikistan münasibətlərinin özünəməxsus xüsusiyyətlərindən biri 1992-1997-ci illər vətəndaş müharibəsi başa çatdıqdan sonra İran diplomatiyasının sülh prosesində birbaşa iştirakı idi. İran özünün siyasi fəaliyyətində bu respublikada mövqeyini qorumaq üçün Tacikistana daha çox diqqət yetirməyə davam edirdi.

İran Əhmədinecadın prezidentliyi dövründə məhz Tacikistanla daha yaxın münasibətlər qurdu. Enerji sektorundakı layihələr İran-Tacikistan əməkdaşlığında xüsusi yer tutur. İki ölkənin ilk önəmli birgə layihələrindən biri Sanqtuda-2 SES-in tikintisi idi. SES-in inşası İranın 220 milyon dollarlıq investisiyası sayəsində mümkün oldu. Bundan əlavə, İran tərəfi Düşənbə və Xocəndi birləşdirən Anzob tunelinin tikintisinə 30 milyon dollardan çox sərmayə qoydu.

İranın Tacikistan iqtisadiyyatında iştirakı əhəmiyyətli olsa da, bəzi birgə investisiya layihələrinin həyata keçirilməsində çətinliklər mövcuddur.Eyni zamanda iki ölkə arasında ticarətin davamlı artımı müşahidə olunur.Hazırda Tacikistanda 150-dən çox İran şirkəti fəaliyyət göstərir. 2005-ci ildə M.Əhmədinecad İranın prezidenti seçilərkən İran və Tacikistan arasında əmtəə dövriyyəsi 67 milyon dollar təşkil etdiyi halda, 2006-cı ildə bu göstərici təxminən iki dəfə artaraq 110 milyon dollara çatdı. 2011-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 204,2 milyon dollar təşkil etdi. 2011-ci ildə Tacikistanın tica-

rət tərəfdaşları arasında İran yalnız Rusiya (1036,4 milyon dollar), Çin (661,3 milyon dollar), Türkiyə (619,1 milyon dollar) və Qazaxıstandan (470,1 milyon dollar) geri qalırdı.

***Farsdilli dövlətlər və Mərkəzi Asiya Respublikaları ilə münasibətlər***

İran “Farsdilli ölkələr ittifaqı”nın (İran, Tacikistan və Əfqanıstan) qurulması istiqamətində bir sıra uğurlara imza atdı. M.Əhmədinecad prezident seçildikdən bir il sonra, 2006-cı ilin iyul ayında E. Rahmon və H. Karzai ilə birgə əməkdaşlıq üzrə üçtərəfli komissiya yaratdı. İran prezidenti bildirdi:

*“Bizdə iqtisadiyyat, mədəniyyət və incəsənət vahid olmalıdır, bizi ayıran bütün maneələr aradan qaldırılmalıdır”. Bu zaman İİR prezidenti vurğuladı ki, “Tacikistan və Əfqanıstanın təhlükəsizliyi İrandan asılıdır, İranın təhlükəsizliyi isə bu ölkələrin təhlükəsizliyindən asılıdır”. 2010-cu ildə Tehran və Düşənbə arasında hərbi əməkdaşlıq haqqında saziş imzalanması bu istiqamətdə atılan konkret addım oldu.*

Hal-hazırda İran Tacikistanda nüfuzunu qoruyub saxlayır və müxtəlif siyasi proseslərə təsir göstərməyə davam edir. Bu, Tehranın regionda öz maraqlarını müdafiə etmək və həyata keçirmək cəhdlərini davam etdirəcəyini təsdiqləyir [3].

Mərkəzi Asiyanın digər ölkələrində İranın siyasəti Tacikistanda olduğu kimi səmərəli nəticələr vermədi.Bütövlükdə 1990-2000-ci illərdə İranın təsiri İran mallarının yerli bazarlara müəyyən ekspansiyası ilə məhdudlaşırdı.Bölgədə İran siyasətinin başqa kiçik uğuru mədəniyyət xadimlərinin məhdud dairəsini və əhalinin kiçik bir hissəsini öz təsir dairəsinə daxil edən mədəniyyət mərkəzləri şəbəkəsinin yaradılması idi.

ABŞ-la münasibətlərdə ziddiyyətlərin artması və 2001-ci ilin sonu – 2002-ci ilin əvvəlində regionda amerikalıların möhkəmlənməyə başlaması İran siyasətinin xarakterini xeyli dərəcədə müəyyən etdi. Bütün sonrakı dövrdə Mərkəzi Asiya ölkələrində İran diplomatiyasının əsas taktiki istiqamətləri İranın xarici siyasi və iqtisadi təcridinin aradan qaldırılmasına kömək edən bütün sahələrə tədricən nüfuz etməyə yönəlmişdi.

İran-Türkmənistan münasibətləri müəyyən spesifikliyə malikdir, bu da iki ölkənin qonşu olması ilə bağlıdır. Qeyd etmək lazımdır ki, Türkmənistan və İran arasındakı münasibətlərin əsas xüsusiyyəti iki ölkənin qarşılıqlı bağlılığının hər iki ölkənin qonşu olması və digər seçimlərinin olmaması ilə şərtlənməsidir. Hər iki ölkə fəal ikitərəfli əlaqələr qurmağa “məhkumdur”. İran üçün Türkmənistanın beynəlxalq statusunun daimi bitərəfliyin xarici siyasətin əsası elan olunması kimi xüsusiyyəti böyük maraq kəsb edir. Türkmənistanın praqmatik neytral statusu onun liderinə müasir dünyanın güc qütbləri arasında uğurla manevr etməyə imkan verirdi. İran üçün neytrallığın Aşqabada beynəlxalq blok strukturlarında iştirakdan kənarda qalmağa imkan verən çəkindirici amil kimi çıxış etməsi vacibdir. Bundan əlavə, İran-Türkmənistan münasibətlərinin bu xətti hər iki tərəf üçün obyektiv surətdə faydalı olan mövcud iqtisadi əlaqələrlə dəstəklənir.

Əhmədinecad dövründə İran xarici siyasətinin prioritetlərindən biri Türkmənistanla dostluq əlaqələrinin möhkəmləndirilməsi olmuşdur. 2006-cı ilin iyulunda Türkmənistanda olarkən M.Əhmədinecad ölkəsinin Türkmənistanla münasibətlərin inkişafına heç bir məhdudiyyət qoymadığını bildirdi. Əhmədinecadın prezidentliyi dönəmində Türk-

mənistan-İran dialoqu, Türkmənistan prezidenti Qurbanqulu Berdimuhamedovun sözlərinə görə, "yeni dinamika qazandı". Əhmədinecadın sözlərinə görə, "ikitərəfli münasibətlər daha da inkişaf etdirilməlidir və bunun üçün heç bir maneə yoxdur". Bu bəyanatlar təcrübədə də öz əksini tapdı. 2006-cı ildə ölkələr arasında əmtəə dövriyyəsi 1,4 milyard dollar idisə, 2011-ci ildə bu göstərici 3 milyard dollar təşkil edirdi. Türkmənistanda 150-dən çox İran müəssisəsi qeydiyyatdan keçmişdir. Eyni zamanda, Türkmənistanın Qərb ölkələri ilə əlaqələrinin sürətli inkişafı ikitərəfli münasibətlərin xarakterinə müəyyən yeniliklər gətirə bilər.

İranın Özbəkistanla münasibətləri daim mötədil siyasi gərginlik xarakteri daşımışdır. İran özünün regional siyasətində Özbəkistana qarşı "islam təhdidi" üsulunu tətbiq edərək, Özbəkistan İslam Hərəkatı ilə əməkdaşlıq qurdu. Bu zaman qarşıya iki məqsəd qoyulmuşdu. Birinci məqsəd Özbəkistan İslam Hərəkatını Səudiyyə Ərəbistanından və vəhhabilik ideologiyasından uzaqlaşdırmaq istəyi ilə bağlı idi, bu istiqamətdə böyük uğurlar əldə edildi. Bu hərəkatın liderləri İranın təsiri altında rəsmən vəhhabilərdən uzaqlaşmağa başladılar. İkinci məqsəd bu hərəkatdan Özbəkistandakı təsirini artırmaq üçün istifadə etməkdən ibarət idi. Bu iki məqsəd olduqca əlçatan idi və əhəmiyyətli səylər tələb etmirdi. Beləliklə, İran Özbəkistanın hakim siyasi rejimi ilə dialoq üçün platforma təmin edə bilərdi.

Bununla yanaşı, İranın Fərqanə regionunda (etnik baxımdan) qarışıq islam dövlətinin qurulmasında maraqlı olduğunu göstərən əlamətlər mövcud idi (Fərqanə vadisində əhalinin 40%-ini taciklər və qarışıq qruplar təşkil edir) [9]. Lakin Özbəkistanla bağlı belə bir ssenarini həyata keçirmək üçün nə qüvvə, nə də ehtiyatlar yetərli deyildi, çünki bu respublika, qonşu Tacikistandan fərqli olaraq, siyasi, iqtisadi və ideoloji sahədə baş verən proseslərə səmərəli şəkildə nəzarət edirdi. Bundan əlavə, Özbəkistan özü Mərkəzi Asiyanın regionunda baş verən proseslərə təsir etməyə başlamışdı.

Tehranın Daşkənd istiqamətində həyata keçirdiyi siyasət 2005-ci ildə dəyişməyə başladı. Bu dövrdə Özbəkistan rəhbərliyi Amerika yönümlü xarici siyasət xəttindən uzaqlaşmağa başlamışdı.Prezident M.Əhmədinecad vəzifəsinin icrasına başladıqdan sonra ölkələr arasındakı münasibətlər xeyli fəallaşdı.

Özbəkistanın bölgədəki əhəmiyyətini anlayan Tehran ona daha çox diqqət yetirir. İran rəsmilərinin diplomatik səfərlərinin əksəriyyətini Özbəkistan səfərləri təşkil edir, lakin belə intensiv dialoq nə iqtisadi əməkdaşlıq, nə siyasi əlaqələr sahəsində, praktik olaraq, nəticə vermir.Ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə İran-Özbəkistan hökumətlərarası komissiyasının çoxlu toplantı keçirməsinə baxmayaraq, iki ölkə arasında ticarət dövriyyəsi azalmışdır. Özbəkistan Dövlət Statistika Komitəsinin məlumatına görə, Özbəkistanla İran arasında əmtəə dövriyyəsi 2010-cu ildə 674,1 milyon dollar təşkil etdiyi halda, 2011-ci ildə qarşılıqlı ticarətin həcmi 35% azalaraq 439,5 milyon dollar təşkil etmişdir.

İran-Özbəkistan əməkdaşlığının ən perspektivli istiqaməti nəqliyyatdır. Bölgənin nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üzrə birgə layihələrin başlanğıc nöqtəsi 1996-cı ildə İran və Mərkəzi Asiya regionunun dəmir yolu şəbəkələrini birləşdirən Tecen-Seraxs-Məşhəd dəmiryol xəttinin çəkilməsi olmuşdur. İran və Özbəkistanın birgə

beynəlxalq nəqliyyat layihələri sırasında 2006-cı ildə Bafk-Bəndər Abbas dəmiryol xəttinin istismara verilməsi, habelə 2011-ci ilin aprelində imzalanmış saziş çərçivəsində Özbəkistan-Türkmənistan-İran-Oman-Qatar nəqliyyat dəhlizi layihəsinin hazırlanması qeyd olunmalıdır.

Sonrakı dövrdə İranın Özbəkistanla münasibətləri mehriban xarakter daşımışdır. Eyni zamanda, Tehran regionda Özbəkistanın əhəmiyyətini adekvat şəkildə dərk edir və postsovet dövrü boyunca öz siyasətində Özbəkistan istiqamətinə maksimum önəm verir.

İranla Qazaxıstan arasında mehriban münasibətlər mövcuddur. Lakin Qazaxıstan xarici siyasətinin Avro-Atlantik vektorunu intensivləşdirməyə meyl göstərir. Qazaxıstanın xarici siyasət fəaliyyətinin Rusiya və son illərdə Çin istiqamətləri obyektiv olaraq İranla münasibətlərin davamlı inkişafına mane ola bilməz. Birləşmiş Ştatlarla əməkdaşlığın intensivləşməsi isə İran-Qazaxıstan münasibətlərinin inkişafını əngəlləyən mühüm amildir. Qazaxıstanın çoxvektorlu xarici siyasəti və iqtisadi inkişaf səviyyəsi İranın bu ölkədə öz maraqlarını inkişaf etdirməsi üçün daha az əlverişli şərait yaradır. Lakin İran siyasi isteblişmenti daxilində Mərkəzi Asiyada yaranmış regional qüvvələr nisbətində Qazaxıstan böyük əhəmiyyəti qəbul olunur.

İranla Qazaxıstan arasında münasibətlər olduqca sabitdir. Qazaxıstanın eyni zamanda Rusiya, Çin, ABŞ, İtaliya və digər ölkələrlə əməkdaşlığa istiqamətlənmiş çoxvektorlu siyasəti sözügedən münasibətlərin fəallaşmasına mane olur. İranla iqtisadi əməkdaşlıq N.Nazarbayevin siyasətində prioritet yer tutmur. Qazaxıstan-İran əməkdaşlığının intensivləşməsinə mane olan başlıca amil Qazaxıstanın ABŞ-la münasibətləridir. Buna baxmayaraq, Əhmədinecad prezidentliyi dövründə iki ölkə arasında iqtisadi əməkdaşlığın həcmini artırmağa çalışmışdır. Eyni zamanda, İran və Qazaxıstanın iqtisadi əməkdaşlığın inkişafında ciddi uğurlara nail ola bildiklərini söyləmək mümkün deyildir. 2006-2010-cu illər arasında ölkələr arasında ticarət dövriyyəsi azalmışdır. Qarşılıqlı ticarətin həcmində illik azalma 15% təşkil etmişdir. Bununla bağlı Qazaxıstanın Qərb ölkələri ilə strateji əməkdaşlıq meyli Tehranda qısqanclıqla qəbul edilir. Bu meylin qarşısını almaq üçün əsas vasitə iqtisadi əməkdaşlığın genişləndirilməsi cəhdləridir. Qazaxıstan SWAP sxemi üzrə hər il İran vasitəsilə 1 milyon ton neft ixrac edir: neft Xəzər dənizi ilə tankerlərlə İran limanlarına çatdırılır, sonra İranın neft emalı zavodlarına göndərilir. Bunun əvəzində Qazaxıstan İran körfəzində İrandan yüksək keyfiyyətli neftini alır və ticarət tərəfdaşlarına ixrac edir.

Bununla yanaşı, Qazaxıstanın gələcəkdə Cənub-Şərqi Asiya ölkələrinə neft ixrac edə biləcəyi Qazaxıstan-Türkmənistan-İran neft boru kəməri layihəsi işlənib hazırlanır. Bu məqsədlə İran körfəzi sahillərindəki İran neft ixrac terminallarından istifadə olunması nəzərdə tutulur. İranın bölgə ölkələri (o cümlədən Qazaxıstanla) regional tərəfdaşlığın həyata keçirilməsi meyili regional İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində də reallaşdırılır. İranla Qazaxıstan arasındakı qarşılıqlı əlaqələr genişləndikcə Qazaxıstan və Qərb ölkələri arasında əlaqələrin həcmi məhdudlaşdırılacaq. Bu baxımdan, Tehranın fikrincə, İran Qazaxıstanla münasibətini elə qurmalıdır ki, qarşılıqlı əlaqələr gizli ehtiyacların təmin edilməsinə və bu ölkənin iqtisadi və mədəni məhdudiyyətlərinin

aradan qaldırılmasına gətirib çıxarsın. Belə bir proses İranla Qazaxıstan arasındakı münasibətlərin və qarşılıqlı əməkdaşlığın səviyyəsini tədricən artıra bilər.

İran və Qırğızıstan arasında münasibətlər xüsusi dinamikası ilə fərqlənmir. Qırğızıstanla İranın siyasi əməkdaşlığı, əsasən, bir sıra beynəlxalq təşkilatlarda hər iki ölkənin iştirakı çərçivəsində həyata keçirilir. İranın Qırğızıstanda iqtisadi və mədəni iştirakı yüksək səviyyədə olsa da, Rusiya, Çin və hətta Türkiyədən xeyli geri qalır. Siyasi sahədə məhdud əlaqələrin mövcudluğunu şərtləndirən mühüm amil Qırğızıstan ərazisində Amerika hərbi hava bazasının yerləşməsidir. Son illər ikitərəfli münasibətlərdə yaranan bir sıra böhran vəziyyətləri bununla bağlıdır. Belə ki, 2006-cı ilin mayında İrana qarşı hərbi əməliyyatların başlanması ilə bağlı Amerika təhdidləri kontekstində Bişkekdəki "Manas" hava limanında yerləşən Amerika aviabazasından İran ərazisinə hava hücumları üçün istifadə ehtimalı barədə məlumatlar yayıldı. Bu məlumat böyük əks-səda doğurdu, Qırğızıstan parlamentinin müdafiə və təhlükəsizlik komitəsi aviabazanın Qırğızıstanda yerləşdirilməsi haqqında ABŞ-la razılaşmanın ləğv edilməsi məsələsinin gündəliyə gətirilməsinə qərar verdi. Qırğızıstanın baş naziri Almazbek Atambayev xüsusi bəyanat verərək bildirdi ki, Qırğızıstan heç bir halda respublikanın ərazisində yerləşən ABŞ aviabazasından İrana qarşı döyüş əməliyyatları aparmaq üçün istifadəsinə icazə verməyəcəkdir. Daha sonra ABŞ-ın Qırğızıstandakı səfiri M.Yovanoviç analoji bəyanatla çıxış etdi.Ehtimal etmək olar ki, bu məlumatın dövriyyəyə buraxılması həm Qırğızıstanın özünün, həm də bölgədə və onun hüdudlarından kənarda yerləşən çoxlu ölkənin siyasi isteblişmentində fikirlərin öyrənilməsi məqsədi daşıyırdı. Son nəticədə bu vəziyyət Qırğızıstan rəhbərliyinin Birləşmiş Ştatlarla qarşıdurma vəziyyətində olan İrana loyallığını nümayiş etdirdi. Belə loyallıq bölgənin bütün dövlətlərinin hakim elitalarına xasdır və ümumi "çoxyönlü siyasət"in sabit komponentidir, Birləşmiş Ştatlar da daxil olmaqla bölgədən kənar tərəfdaşlar bununla hesablaşmaq məcburiyyətindədir.

Hazırda İranın Mərkəzi Asiyada regionunda siyasəti bölgədə Amerikanın hərbi iştirakı nəzərə alınmaqla həyata keçirilir. Bu, İranın regionda ABŞ-ın təsirinin genişlənməsinin arzuolunmazlığı məsələsində İranla yaxın və ya eyni mövqeyə malik olan Rusiya, Çin və Hindistanla əməkdaşlığı inkişaf etdirməsini tələb edir. İran yalnız güclü Rusiyanın Mərkəzi Asiyada müxtəlif ölkələrin maraqlarının balansının təminatçısı ola biləcəyini əsas götürərək, bölgədə Rusiya liderliyinin qorunub saxlanılmasına anlayışla yanaşır.

Ümumiyyətlə, İranın Mərkəzi Asiyada bütün postsovet dövründə, xüsusilə prezident M.Əhmədinecad dövründə siyasəti tarazlaşdırılmış xarakter daşımışdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, hazırda Mərkəzi Asiyada İranın siyasi təsirində ciddi azalma müşahidə olunur.Bu, əsasən ABŞ-dan İran İslam Respublikasına olan təhdidlərin artması ilə əlaqədardır. Öz növbəsində, İranla hərbi münaqişənin mümkün nəticələri ciddi hərbi-siyasi nəticələrə səbəb ola bilər.

Birincisi, bu, Yaxın və Orta Şərqin böyük bir ərazisində qeyri-sabitlik zonalarının formalaşmasına gətirib çıxaracaq, bu da Mərkəzi Asiya regionuna təzyiq göstərərək, bölgədə onsuz da gərgin olan vəziyyəti kəskinləşdirəcək.

İkincisi, bu, Pakistanda, sonradan isə həm də Əfqanıstanda radikal ekstremist qüvvələrin kəskin şəkildə güclənməsinə, Əfqanıstandakı mürəkkəb hərbi-siyasi vəziyyətin tamamilə nəzarət altından çıxmasına səbəb olacaq.

Üçüncüsü, mümkün siyasi və iqtisadi nəticələr Moskva-Tehran oxunun dağılması və amerikalıların Mərkəzi Asiyada möhkəmlənərək bölgənin neft və qaz ehtiyatlarını nəzarətə götürməsi ola bilər.

Dördüncüsü, İrana qarşı hərbi kampaniyaya başlayarkən ABŞ yalnız onu "neytrallaşdırmayacaq", həm də üzvləri Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan olan ŞƏT-ə qabaqlayıcı zərbə endirəcək.

Yaxın və Orta Şərq regionunda hərbi-siyasi vəziyyətdə əhəmiyyətli dəyişikliklərlə əlaqədar Mərkəzi Asiyada İranın əsas xarici siyasət prioritetləri aşağıdakılardır:

- region ölkələri ilə sıx, qarşılıqlı faydalı və etibarlı siyasi və iqtisadi münasibətlərin qurulması;
- Tacikistanda siyasi nüfuzun qorunub saxlanması;
- Özbəkistanla normal münasibətlərin qorunması;
- Rusiya və Tacikistanla fəal əməkdaşlıq sayəsində Əfqanıstanın tacik və xazarey liderlərinin dəstəklənməsi sayəsində (ABŞ-ın mümkün təhdidini neytrallaşdırmaq üçün) Əfqanıstanda nüfuzun qorunub saxlanması;
- MDB-nin Mərkəzi Asiya regionu ölkələrinin ərazisindən İrana qarşı ABŞ-ın hərbi və kəşfiyyat tədbirlərində istifadə imkanı haqqında məlumatların toplanması.

İranın Qafqazla münasibətləri uzun və mürəkkəb tarixə malikddir. İran-Qafqaz münasibətlərində yaşanan çətinliklər regiondan kənar dövlətlərin: keçmişdə Böyük Britaniya, Osmanlı və Rusiya imperiyalarının, indi isə ABŞ, Türkiyə və Rusiyanın hərəkətləri ilə şərtlənmişdir. İran regionun güclü dövləti olaraq, yalnız Cənubi Qafqaz ölkələrinin deyil, həm də regiondan kənar oyunçuların diqqətini cəlb edir. Üstəlik, Qərbdə, ilk növbədə ABŞ-da bəzi politoloqlar İranı Azərbaycan, Ermənistan və Gürcüstanın təhlükəsizliyinə başlıca təhdid hesab edirlər.Lakin bu, mövcud reallıqlara uyğun gəlmir, hərçənd Amerika isteblişmentinin bəzi nümayəndələri bir daha Qafqaz ölkələrini İranla qorxutmağa çalışırlar.

ABŞ Konqresinin xarici işlər komitəsinin Avropa və Avrasiya üzrə alt komitəsinin keçirdiyi "İranın Cənubi Qafqaza və ətraf regiona təsiri" mövzusunda dinləmələrin iştirakçıları İranın Cənubi Qafqaz ölkələri ilə əlaqələrinin bir çox məqamlarına toxunmuşlar. Lakin çıxışların leytmotivi tamamilə aydın idi: bölgənin və ayrılıqda hər bir ölkənin təhlükəsizliyinə əsas təhdid mənbəyi İrandır. Lakin bu mülahizələr həqiqətə uyğun deyildir.

İranın Qərbi Asiyadakı ən əhəmiyyətli geostrateji mövqeyi tutması heç kimdə şübhə doğurmur. Eyni zamanda, İran Qafqazla qonşu, Yaxın Şərq, Orta Asiya və Xəzəryanı ölkə olub, Hind okeanının İran və Oman körfəzləri ilə əhatələnir. Bölgədə bütün "ağrılı nöqtələr": etnik və dini, hərbi və iqtisadi məsələlər, qaçqınlar problemi, terrorçuluq və separatçılıq əleyhinə mübarizə bu və ya digər şəkildə İranla bağlıdır.İranın karbohidrogen ehtiyatları mənbəyi, neft və qaz məhsullarının nəql olunduğu ərazi kimi

əhəmiyyəti də şəksizdir. Bundan başqa, dünyanın ən böyük ordularından birinə malik olan İran obyektiv surətdə regional siyasətdə mühüm amil kimi çıxış edir.

Bundan əlavə, İran ətrafındakı hərbi-siyasi vəziyyət də Tehranın liderlik iddialarını artırır. Bu gün İran İslam Respublikası, əsasən, dost olmayan ölkələrlə əhatə olunmuşdur. İranın əsas rəqibi olan ABŞ, demək olar ki, hər tərəfdə: qərbdə – İraqda, şərqdə – Əfqanıstanda, cənubda – İran və Oman körfəzlərində, Mərkəzi Komandanlığın baza və gəmilərində hərbü güc cəmləşdirmişdir. NATO üzvü olan Türkiyə, habelə Gürcüstan, əsasən, Vaşinqtona istiqamətlənmişdir. İran körfəzinin digər tərəfində yerləşən sünni monarxiyalar güclü şiə qonşusuna düşmən kimi yanaşırlar.

***Cənubi Qafqaz ölkələri ilə münasibətlər***

Üç Cənubi Qafqaz ölkəsindən yalnız əhalisi tarixən İslamın şiə məzhəbinə bağlı olan Azərbaycan ideoloji-təbliğati maraq kəsb edir. Xristian Ermənistanda müsəlmanlar olmadığından, Gürcüstanda isə müsəlmanların sayı az olduğundan, bu ölkələrə dini təsir imkanları çox aşağıdır. Lakin burada siyasi maraqlar ön plana çıxır. Şübhə yoxdur ki, İran və üç Cənubi Qafqaz respublikası tarixi və coğrafi cəhətdən bir-birində maraqlıdır. Əlbəttə, İranla Cənubi Qafqazın üç respublikası arasında münasibətlər birmənalı deyildir, bəzən mürəkkəb xarakter kəsb edir. Lakin bu münasibətlərin inkişafına və məzmununun xarici qüvvələr böyük təsir göstərir. Qafqaz regionunda bir çox ölkələrin: ilk növbədə Türkiyə, ABŞ, Avropa Birliyi və Rusiyanın maraqları kəsişir. Buna görə də Cənubi Qafqaz dövlətlərinin hər birinin regional siyasətinin vektorları ikitərəfli və çoxtərəfli münasibətlərin doğurduğu bir sıra amillərlə müəyyən olunur. İki dövlətin münasibətlərini təhlil edərkən bu regional siyasi müstəvidə onların əlaqələrinin bütün kompleksini nəzərə almamaq mümkün deyildir.

Gürcüstan İranın Qafqaz siyasətində mühüm istiqamətlərdən birini təşkil edir. Tehran Tbilisi ilə münasibətlərinə həm siyasi, həm də geostrateji və iqtisadi maraqlarının təmin olunması baxımından böyük önəm verir. İranın Şimal-Cənub nəqliyyat dəhlizinə marağı xüsusilə nəzərə çarpır. Gürcüstan bu dəhlizin mühüm həlqəsi olduğundan, onun layihəyə qoşulması İran üçün vacibdir. İran-Avropa ticarət əlaqələri baxımından Gürcüstanın Qara dənizə çıxışı zəruridir. Ölkənin enerji problemləri də İranla əməkdaşlıq üçün zəmin yaradır.

İran-Gürcüstan münasibətlərində, siyasi və iqtisadi maraqlardan başqa, ideoloji aspekt də mövcuddur. İran rəhbərliyi regionda ABŞ-ın hərbi iştirakının inkişafından daim narahatdır. Tehranın fikrincə, Gürcüstanın Qərblə əməkdaşlığı birbaşa İranın təhlükəsizliyi ilə bağlıdır.12 sentyabr 2012-ci ildə Gürcüstana ABŞ-nın hava hücumundan müdafiə üzrə bir qrup eksperti gəlmişdir. Bu səfər 2009-cu ilin yanvarında Tbilisi və Vaşinqton arasında imzalanmış Strateji Əməkdaşlıq Xartiyası ilə nəzərdə tutulmuş formatda keçirilmişdir. Əslində söhbət ABŞ-ın Gürcüstan HHM qüvvələrinin yaradılmasına yardımından gedir. Bəzi ekspertlərin fikrincə, ABŞ-ın HHM sistemləri Gürcüstana İrandan qorunmaq üçün lazımdır.

Qərblə yaxınlaşmaq yolunu davam etdirən müstəqil Gürcüstanla siyasi əlaqələr İranın anti-Qərb ideoloji mövqeyi üzündən mürəkkəbləşir.Buna baxmayaraq, həm Gür-

cüstan, həm də İran münasibətləri möhkəmləndirmək niyyətlərini bildirirlər. Əməkdaşlığın hüquqi bazası siyasi, ticari, iqtisadi və humanitar sahələrdə qarşılıqlı fəaliyyəti tənzimləyən 50-ə yaxın sazişi əhatə edir.

Turizmin inkişafı, işgüzar əlaqələrin möhkəmləndirilməsi və Gürcüstan iqtisadiyyatına sərmayələrin artırılması İran vətəndaşları üçün vizaların ləğvinə təkan vermişdir. 2013-cü ildə ləğv edilən vizasız rejim 2016-cı ildə bərpa olunmuşdur [10]. Öz növbəsində, İran 2015-ci ildə Gürcüstan vətəndaşları üçün vizaları ləğv etmişdir. Son dövrlərdə iki ölkə arasında ticarət dövriyyəsi 150-200 milyon dollar təşkil edir. Eyni zamanda qeyd edilir ki, bu göstərici 2 milyard dollara çata bilər.

İkitərəfli əməkdaşlığın perspektivləri nəqliyyat və energetika müstəvisində yerləşir. Gürcüstan İrana Qara dəniz limanları vasitəsilə Avropaya çıxış üçün tranzit marşrutları təqdim edə bilər. İran Gürcüstan üçün ehtiyat enerji mənbəyi kimi maraq kəsb edir. 2017-ci ilin yanvarında Tbilisi və Tehran tranzit yolunda maneələri aradan qaldırmaq üçün nəzərdə tutulmuş əməkdaşlıq müqaviləsi imzalamışlar. Azərbaycan, Gürcüstan və İran birlikdə İran körfəzindəki Bəndər Abbas limanını Xəzər dənizi və Qara dənizlə birləşdirən dəmiryolu dəhlizi yaratmaq niyyətindədir [11].

Qaz sektorunda İranla enerji əməkdaşlığı Gürcüstana Azərbaycandan asılılığı azaltmağa imkan verir. 2016-cı ildə imzalanan İrandan Gürcüstana qaz ixracı ilə bağlı razılaşmaya əsasən, İran tərəfi Ermənistan ərazisi ilə hər il Gürcüstana 500 milyon kubmetrə qədər qaz tədarük etməyi öhdəsinə götürmüşdür. Lakin mövcud infrastrukturu nəzərə aldıqda, söhbətin qaz svopundan getdiyi aydın olur: İran Ermənistana, Rusiyaya isə Gürcüstana eyni miqdarda qaz nəql edir. Gürcüstan ərazisindən Ermənistana gedən qaz boru kəməri vasitəsi ilə Rusiya qazı nəql olunur, bu sxem üçün "Qazprom"la razılaşma tələb olunur. Beləliklə, İran-Gürcüstan ikitərəfli münasibətlərinin inkişafı Gürcüstanın tranzit imkanları və qaz təchizatının şaxələndirilməsində maraqlı olması ilə bağlıdır. Eyni zamanda, ümumi sərhədin olmaması səbəbindən nəqliyyat və enerji sektorunda əməkdaşlığın genişləndirilməsi qonşu ölkələrlə tərəfdaşlığın qurulmasını və onların maraqlarının nəzərə alınmasını tələb edir.

İran və Ermənistan arasında ikitərəfli siyasi münasibətlər yüksək səviyyədədir, bu da regional və beynəlxalq məsələlərdə mövqelərin yaxınlığı ilə izah olunur. 2016-cı ildə H.Ruhani Ermənistana rəsmi səfər etmişdir. Mədəni və tarixi əlaqələr də dostluq və qonşuluq əlaqələrin qurulmasına təsir göstərir. İqtisadi əlaqələr siyasi və mədəni əlaqələrlə müqayisədə daha az inkişaf etmişdir. Sanksiyalar dövründə ticarət dövriyyəsi 250-300 milyon dollar səviyyəsində qalırdı.

İranın Ermənistana ixracatı əsasən təbii qaz, neft və kimya məhsulları ilə təmsil olunur. Ermənistandan idxal elektrik enerjisini, heyvandarlıq məhsullarını, alüminium və tibbi məhsulları əhatə edir.

Ermənistan sanksiyaların götürülməsinə müsbət yanaşdı, çünki Ermənistan bu hadisəni İranla qarşılıqlı ticarətin genişləndirilməsi və onu Ermənistanın iştirak etdiyi infrastruktur layihələrinə cəlb etmək imkanı kimi qiymətləndirirdi. Nəqliyyat və enerji sektorları ikitərəfli əlaqələrin inkişafı baxımından ən perspektivli sahələrdir.

Ermənistan-İran dəmiryolu layihəsi hələ də kağız üzərindədir, çünki yolun Ermənistandan keçən hissəsinin tikintisi üçün əhəmiyyətli investisiyalar tələb olunur. Bununla əlaqədar digər nəqliyyat təşəbbüsləri, xüsusilə İran, Ermənistan və Gürcüstan ərazisindən keçən magistral və dəmiryolları ilə İran körfəzi və Qara dənizi birləşdirən nəqliyyat dəhlizinin formalaşdırılması layihəsi ön plana çıxmışdır [5].

Yerevan və Tehran arasında qarşılıqlı ticarət və investisiyaların genişlənməsi iki ölkənin sərhədində olan "Araz" azad iqtisadi zonasını və Avrasiya İqtisadi Birliyi (AİB) ilə azad ticarət zonasını da əhatə edir. İranla quru sərhədinə malik AİB üzvü olan yeganə ölkə kimi Ermənistan müvafiq sazişin hazırlanmasının təşəbbüskarıdır. Bundan başqa, Ermənistan İranla sərhəddə Meğri şəhərində Ermənistan-İran azad iqtisadi zonasının yaradılması layihəsi üzərində işləyir.

Enerji sektorunda İran-Ermənistan birgə infrastruktur layihələri arasında Araz çayı üzərində Meğri su elektrik stansiyasının tikintisini qeyd etmək olar. İran bu layihəni tam şəkildə maliyyələşdirmişdir (300 milyon dollardan çox). SES istismara verildikdən sonra 15 il ərzində əldə olunan enerji İrana pulsuz veriləcək, bundan sonra su elektrik stansiyası Ermənistanın mülkiyyətinə keçəcək [4].

Enerji sektorunda əməkdaşlıq "Qaz müqabilində elektrik enerjisi" proqramının həyata keçirilməsini də əhatə edir. Bu proqrama görə, Ermənistan İran qazını elektrik enerjisinə çevirərək, İrana tədarük edir. Ermənistan elektrik enerjisi ixracının həcmini ildə 300 min kilovat-saatdan 1 milyard kilovat-saata qədər artırmağı planlaşdırır [6]. Gələcəkdə isə Rusiya və Gürcüstanın İran-Ermənistan enerji əməkdaşlığına qoşulması nəzərdə tutulur. Müvafiq "yol xəritəsi" 2016-cı ildə imzalanmışdır [8].

İran-Azərbaycan münasibətlərinə gəlincə, hazırkı mərhələdə iki ölkə müxtəlif sahələrdə tərəfdaşlıq edirlər. İkitərəfli əlaqələr praqmatizmə əsaslanır. Bakı İran, Türkiyə və Rusiya arasında balanslaşdırılmış siyasət yürüdür və qonşuları ilə əməkdaşlığı inkişaf etdirir. Bu gün regional gündəliyin bir çox məsələlərinə dair iki ölkənin mövqeləri bir-birinə yaxındır. Hər iki ölkə əməkdaşlığın genişləndirilməsində maraqlıdır, yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlər buna sübutdur. Bakı tərəfindən təklif olunan üçtərəfli əməkdaşlığın yeni formatları: Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-İran-Gürcüstan maraq kəsb edir. İran üzərindən sanksiyaların götürülməsi Azərbaycanla iqtisadi münasibətlərə yeni təkan vermişdir. 2016-cı ildə İranın Azərbaycan iqtisadiyyatına investisiyaları 2,5 milyard dollara çatmışdır. 2016-cı ildə ticarət dövriyyəsi 2015-ci ilə nisbətən 70% -dən çox artmışdır.

İran Şimal-Cənub və TRACECA nəqliyyat dəhlizlərinin birgə qurulmasında və istifadəsində maraqlıdır. Neft-qaz sektorunda və enerji sahəsində əməkdaşlıq inkişaf edir.

2015-ci ilin dekabrında İran və Azərbaycan arasında elektrik enerjisi mübadiləsi haqqında anlaşma memorandumu imzalanmışdır. 2016-cı ildə yeni elektrik ötürücü xətti sayəsində elektrik mübadiləsi 200 MVt-dan 500 MVt-a qədər artmışdır. Rusiya-Azərbaycan-İran enerji dəhlizi layihəsi nəzərdən keçirilir, bu layihə elektrik enerjisinin Rusiyadan Azərbaycana, daha sonra isə İrana ixracını nəzərdə tutur [1].

Neft və qaz sahəsində svop qaz tədarükü davam edir, bunun sayəsində Azərbaycan Naxçıvan Muxtar Respublikasını qazla təmin edir. 2016-cı ildə İran qazının saxlanılması və qış dövründə İranın şimal bölgələrinə tədarükü üçün ARDNŞ-in qaz anbarlarından istifadə edilməsi haqqında razılaşma əldə olunmuşdur.

İran 10% payla Azərbaycanın "Şahdəniz-2" qaz layihəsində iştirak edir və Azərbaycan qazını Avropaya çatdıracaq Trans-Anadolu (TANAP) və Transadriatik (TAP) boru kəmərlərinə maraq göstərir. Bu maraq İranın öz qaz ehtiyatlarını Avropaya nəql etmək istəyindən irəli gəlir və bununla əlaqədar İran TANAP layihəsinə qoşulmaq imkanlarını nəzərdən keçirir [7]. İran və Azərbaycan regionda sabitliyi gücləndirmək məqsədilə əməkdaşlığı bundan sonra da inkişaf etdirmək niyyətindədir.

Göründüyü kimi, Mərkəzi Asiyada və Qafqazda İranın xarici siyasət strategiya-sının əsas elementləri iqtisadiyyat və təhlükəsizlikdir. İran və bu regionun ölkələri arasında əməkdaşlığın ən səmərəli və perspektivli sahələri neft-qaz sənayesi, ticarət, energetika və nəqliyyatdır. İranın xarici siyasətinin post-sanksiya dövründə əsas istiqaməti Qərb ölkələri ilə əlaqələrin qurulması olsa da, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıq uzunmüddətli perspektivdə İran İslam Respublikasının xarici siyasətinin prioritet tərkib hissəsidir.

**Ədəbiyyat siyahısı**


1. Азербайджан, Иран, Россия создают энергетический коридор [Электронный ресурс] // Trend News Agency. – 2016. – 10 февраля. – Режим доступа: http://www.trend.az/business/energy/2492874.html (дата обращения: 16.04.2017).
2. Ганиев Т.А., Бондарь Ю.М., Толмачев С.Г., Анализ и прогнозирование военно-политической обстановки в зарубежных странах. Исламская Республика Иран. Учебник. М. ВУ, 2011.
3. Ганиев Т.А., Бондарь Ю.М., Чернета О.Г, Толмачев С.Г., Специальное страноведение. Исламская Республика Иран. Учебник. М. ВУ, 2013.
4. Дан старт строительству Мегринской ГЭС [Электронный ресурс] // РусГидро. – 2012. – 21 декабря. – Режим доступа: http://blog.rushydro.ru/?p=7776 (дата обращения: 15.04.2017).
5. Заявление Президента Ирана Хасана Рохани перед СМИ после встречи с Президентом Сержем Саргсяном [Электронный ресурс] // Официальный сайт Президента Республики Армения. – 2016. – 21 декабря. – Режим доступа: http://www.president.am/ru/press-release/item/2016/12/21/President-Serzh-Sargsyan-Iran-President-Hassan-Rouain-announcements-for-Mass-Media/ (дата обращения: 15.04.2017).
6. Иран договорился с Арменией об экспорте газа в Грузию и напомнил о строительстве 3-й ЛЭП 400 кВт [Электронный ресурс] // Neftegaz.ru. – 2016. – 27 июля. – Режим доступа: http://neftegaz.ru/news/view/151496-Iran-dogovorilsya-s-Armeniey-ob-eksporte-gaza-v-Gruziyu-i-napomnil-o-stroitelstve-3-y-LEP-400-kVt.-S-vozvratom-zamorozhennyh-v-SShA-avuarov-vse-gorazdo-pechalnee (дата обращения: 15.04.2017).
7. Иран изучает экономическую привлекательность TANAP [Electronic resource] // Информационное агентство Vesti.az. – 2016. – 29 декабря. – Режим доступа: http://vesti.az/news/318021 (дата обращения: 16.04.2017

8. Минэнерго РФ, Армении, Ирана и Грузии подписали «дорожную энергокарту» [Электронный ресурс] // Интерфакс. – 2016. – 13 апреля. – Режим доступа: http://www.interfax.ru/business/503553 (дата обращения: 15.04.2017).
9. Сажин В. И. Региональная политика Ирана: «шиитские» рычаги для соседей [Электронный ресурс] / В. Сажин. – Режим доступа: www.centrasia.ru/newsA.php?st=1093845240.
10. Georgia officially restores visa-free regime for Iran//Georgia Today.–2016.–February 15.– Mode of access: http: // georgiatoday. ge/news/2969/Georgia-Officially-Restores-Visa--Free-Regime-for-Iran (accessed on 16.04.2017).
11. Iran, Azerbaijan, Georgia to expand transit cooperation [Electronic resource] // ISNA – 2015. – December 23. – Mode of access: http://en.isna.ir/news/94100201304/Iran-Azerbaijan-Georgia-to-expand-transit-cooperation (accessed on 16.04.2017).